**G&A** Audit Company Ltd

G&A Audit Company Ltd.
82/94, A.Alekberov str.,
Baku AZ 1073, Azerbaijan
Tel.: (+994 12) 497 43 03
Fax: (+994 12) 438 70 17
Cell: (+994 50) 223 35 52
E-mail: said@azerinet.com

# MÜSTƏQİL AUDİTORUN HESABATI

## "PAŞA SIĞORTA" AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN

## rəhbərliyinə

Biz, "PAŞA Sığorta" ASC-nin 31 dekabr 2011-ci il tarixinə olan dövr üzrə balans, maliyyə nəticələri və onların istifadəsi haqqında hesabat və balansa əlavədən ibarət olan maliyyə hesabatlarının və vergi bəyannamələrinin düzgünlüyünün auditini aparmışıq.

Cəmiyyətin rəhbərliyi göstərilən maliyyə hesabatlarının və vergi bəyannamələrinin Azərbaycan Respublikası Maliyyə Nazirliyinin müvafiq tələblərinə, Vergi Məcəlləsinə və digər qanunvericilik aktlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi üzrə məsuliyyət daşıyır. Həmin məsuliyyətə fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının və vergi bəyannamələrinin hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarətin təşkili, tətbiqi və saxlanması; müvafiq uçot siyasətinin seçilməsi və tətbiqi; və müəyyən şəraitə münasib olan uçot ehtimallarının müəyyən edilməsi daxildir.

Bizim vəzifəmiz apardığımız audit əsasında həmin maliyyə hesabatları və vergi bəyannamələri üzrə rəy ifadə etməkdir. Biz auditi beynəlxalq audit standartlarına uyğun aparmışıq. Bu standartlar bizdən etik normalara riayət etməyi və auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında və vergi bəyannamələrində əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir.

Auditə maliyyə hesabatlarında və vergi bəyannamələrində göstərilən məbləğlər və açıqlamalar barədə audit sübutunun əldə edilməsi üçün prosedurların həyata keçirilməsi daxildir. Seçilmiş prosedurlar, eləcə də fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, maliyyə hesabatlarının və vergi bəyannamələrinin əhəmiyyətli səhvlər riskinin qiymətləndirilməsi bizim mülahizələrimiz əsasında aparılmışdır. Auditə, həmçinin, tətbiq edilmiş uçot prinsiplərinin və Cəmiyyətin rəhbərliyi tərəfindən edilmiş mühüm ehtimalların qiymətləndirilməsi, o cümlədən ümumilikdə maliyyə hesabatlarının və vergi bəyannamələrinin təqdim edilməsi üzrə qiymətləndirilmənin aparılması daxildir.

Biz hesab edirik ki, əldə etdiyim audit sübutları auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

Rəy

Bizim fikrimizcə, 31 dekabr 2011-ci il tarixinə Cəmiyyətin maliyyə hesabatları və vergi bəyannamələri Azərbaycan Respublikası Maliyyə Nazirliyinin müvafiq tələblərinə, Vergi Məcəlləsinə və digər qanunvericilik aktlarına uyğun olaraq düzgün və ədalətli təsəvvür yaradır.

Müstəqil auditorun hesabatı 28.02.2012-ci il tarixdə eyni qüvvəyə malik iki nüsxədə tərtib edilmişdir. Bunlardan biri sifarişçi-təsərrüfat subyektində, ikincisi isə "G&A Auditor Firması" MMC-də saxlanılır.

**"G&A Auditor Firması" MMM-nin Direktoru** — **S.N. Qafarov**

AZƏRBAYCAN RESPUBLİKASI MƏHDUD MƏSULİYYƏTLİ MÜƏSSİSƏ AUDITOR FIRMASI G&A AUDIT FIRM LTD AZERBAIJAN REPUBLIC

**Auditor** — **N. Z. Orucov**

GA R № 0000057 «28» fevral 2012-ci il